**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

_______________

05.04.2023-cü il

## Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Turizmin inkişafı" işçi qrupunun 2023-cü il üzrə Fəaliyyət Planı

| Sıra №-si | İndikatorlar | Mövcud vəziyyət *(Son hesabat üzrə)* | Metodologiya | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər |
|---|---|---|---|---|---|---|---|
| **Səyahət və Turizmin İnkişafı İndeksi** | | | | | | | |
| **1. Mühafizə və təhlükəsizlik** | | | | | | | |
| 1.1. | **2.03 Gecə tək gəzinti təhlükəsizliyi** | 21-ci yer, 5,7 bal | Bu göstərici üzrə məlumatlar Leqatum Rifah İndeksinin müvafiq komponenti üzrə əldə olunmuş nəticələrə əsaslanır və həmin nəticələr "Gallup" təşkilatı tərəfindən verilən *"Şəhərdə və ya yaşadığınız yerdə gecə vaxtı gəzərkən özünü təhlükəsiz hiss edirsinizmi?"* sualına "bəli" cavab verənlərin sayına görə müəyyən edilir. | Turizm əhəmiyyətli rayon və şəhər mərkəzlərində yerli və xarici vətəndaşların təhlükəsiz gəzintisinin təmin edilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2023 | Daxili İşlər Nazirliyi | Əziz Bəqişev |
| 1.2. | **2.04 Qətl hadisələrinin sayı (hər 100 min nəfərə)** | 60-cı yer, 6,6 bal | Bu göstərici 100 min nəfərə düşən qətl sayı əsasında müəyyən edilir. BMT-nin Narkotik və Cinayətlər Bürosu qətllərlə bağlı məlumatları dövlətlərdən, habelə Interpol, Eurostat, Amerika Dövlətləri Təşkilatı, UNICEF, Ümumdünya Səhiyyə Təşkilatı kimi təşkilatlardan toplayır. | Əhalinin təhlükəsizliyinin daha da gücləndirilməsi və baş verə biləcək qətl hadisələrinin qarşısının alınması istiqamətində zəruri tədbirlərin görülməsi | İl ərzində | Daxili İşlər Nazirliyi | Əziz Bəqişev |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **2. İnsan resursları və əmək bazarı** | | | | | | | |
| 2.1. | **4.03 İşçi heyətə təlim keçmə səviyyəsi** | 33-cü yer, 4,7 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda *“Ölkənizdə şirkətlər təlim və işçilərin inkişafına nə qədər investisiya yönəldirlər?”* sualına cavab [1 = heç yönəldilmir; 7 = çox yönəldilir]. | Əmək bazarında təlimlərə çıxışın genişləndirilməsi imkanlarının araşdırılması və bu istiqamətdə müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2023 | Elm və Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi | Nicat Məmmədli |
| 2.2. | **4.07 Çevik (flexible) iş rejimi** | 23-cü yer, 4,9 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda *“Ölkənizdə şirkətlər nə qədər çevik iş rejimi mexanizmləri (məsafədən (remote) və yarım günlük iş rejimləri) təklif edirlər?”* sualına cavab [1 =heç təklif edilmir; 7=böyük ölçüdə təklif edilir]. | Çevik iş rejimlərinin tətbiqi ilə bağlı mövcud vəziyyətin araşdırılması və qeyd olunan indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi istiqamətində görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi | Nizami Hüseynli |
| **3. İnformasiya kommunikasiya texnologiyasına hazırlıq** | | | | | | | |
| 3.1. | **5.06 Nəqliyyat və daşıma xidmətlərinin təmin olunmasında rəqəmsal platformalar-dan istifadə** | 30-cu yer, 5,1 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda *“Ölkənizdə nəqliyyat və daşıma xidmətləri üçün rəqəmsal platformalardan nə dərəcədə istifadə olunur?”* sualına cavab [ 1= heç istifadə olunmur; 7= çox geniş istifadə olunur]. | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və çatışmazlıqlar olduğu təqdirdə məlumatların ötürülməsi işinin təkmilləşdirilməsi | 01.07.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, “Azərbaycan Dəmir Yolları” QSC, Dövlət Turizm Agentliyi, Bakı Şəhər İcra Hakimiyyəti (Bakı Nəqliyyat Agentliyi) | Nərmin Babayeva |
| | | | | 2. Nəqliyyat və daşıma xidmətlərinin təmin olunmasında rəqəmsal platformalardan istifadə üzrə mövcud vəziyyətin araşdırılması və qeyd olunan indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi ilə bağlı görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | | |
| | | | | 3. Nəqliyyat və daşıma xidmətlərində rəqəmsal platformalardan istifadənin genişləndirilməsi və onların təkmilləşdirilməsi istiqamətində zəruri işlərin görülməsi | 01.12.2023 | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 3.2. | **5.07 Hotel, restoran və istirahət xidmətləri üçün rəqəmsal platformadan istifadə** | 59-cu yer, 5,1 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda “Ölkənizdə hotel, restoran və istirahət xidmətləri üçün *rəqəmsal platformalardan* nə dərəcədə istifadə olunur?” sualına cavab [ 1= heç istifadə olunmur; 7= çox geniş istifadə olunur]. | 1. Hotel, restoran və istirahət xidmətləri üçün rəqəmsal platformalardan istifadə ilə bağlı mövcud vəziyyətin araşdırılması və qeyd olunan indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi istiqamətində görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | Dövlət Turizm Agentliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Məhəmməd Muradov, Nərmin Babayeva |
| | | | | 2. Daxili turizmin təşviq edilməsi, o cümlədən daxili turistlərin rəqəmsal platformalardan istifadə etməsinin təşviqi məqsədilə www.mehman.az internet səhifəsinin yaradılması | 01.12.2023 | | |
| **4. Səyahət və turizmin prioritetliyi** | | | | | | | |
| 4.1. | **6.01 Dövlət tərəfindən səyahət və turizmə çəkilən xərclər** | 61-ci yer, 2,9 bal | Bu indikator dövlət tərəfindən səyahət və turizmə çəkilən xərclərin dövlət büdcəsinin ümumi xərclərində xüsusi çəkisini əks etdirir. Bu göstəriciyə ziyarətçilər üçün mədəniyyət (məs., muzeylər), istirahət (məs., milli parklar), rəsmiləşmə (məs., immiqrasiya/gömrük) və s. kimi səyahət və turizmlə bağlı xidmətlərin göstərilməsi ilə əlaqədar dövlət qurumları tərəfindən çəkilən xərclər (transferlər və ya subsidiyalar) daxildir. | 1. Dövlət tərəfindən səyahət və turizmə çəkilən xərclərin ümumi dövlət büdcəsində xüsusi çəkisinin müəyyən edilməsi ilə bağlı metodologiyanın öyrənilməsi və bu istiqamətdə zəruri işlərin görülməsi | İl ərzində | Dövlət Turizm Agentliyi, Maliyyə Nazirliyi, Mədəniyyət Nazirliyi, Dövlət Statistika Komitəsi | Məhəmməd Muradov, Zakir Hacıyev |
| | | | | 2. İndikatorun hesablanması üçün müvafiq məlumatların mövcudluğu, eləcə də onların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | | | |
| 4.2. | **6.02 Səyahət və turizm məlumatlarının əhatəliliyi** | 40-cı yer, 5,2 bal | Bu indikator səyahət və turizm üzrə müvafiq məlumatların mövcudluğunu əks etdirir (0 = məlumat yoxdur, 120 = bütün seçilmiş göstəricilər mövcuddur).<br>Bu göstərici BMÜTT-nin (UNWTO) turizm statistika bazasında olan 30 fərqli komponent üzrə dövlətlər tərəfindən illik əsasda təqdim olunan məlumatların mövcudluğunu göstərir. | BMT-nin Ümumdünya Turizm Təşkilatının turizm statistikasına dair məlumat bazasında ölkəmizə dair statistik məlumatların mövcudluğu vəziyyətinin araşdırılması və bu sahədə mövqeyimizin yüksəldilməsi ilə bağlı zəruri işlərin görülməsi | 01.12.2023 | Dövlət Statistika Komitəsi, Dövlət Turizm Agentliyi | Rauf Əliyev |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 4.3. | **6.04 Ölkə Brendi Strategiyası reytinqi** | 75-ci yer, 4,6 bal | Bu indikator ölkənin brend strategiyasının dəqiqliyini (doğruluğunu) qiymətləndirir. Bu göstərici müəyyən bir ölkə üçün ən populyar brend etiketləri ilə həmin ölkənin ən çox təbliğ etdiyi brend etiketlərini müqayisə edən düstur vasitəsilə brend strategiyasının dəqiqliyini ölçür. Əgər ölkə öz təbliğatını yüksək tələbat olan strateji brend etiketlərinə yönəldirsə, onda daha yüksək reytinq alır. Aşağı reytinq ya ölkə tərəfindən zəif, uyğun olmayan brend etiketlərin təbliğatını, ya da ən çox tələb olunan brend etiketlərinə diqqət yetirilməməsini göstərir. İstisnalar brend strategiyasına yeni başlayan ölkədə tətbiq oluna bilər. Bu halda daha aşağı reytinq sadəcə olaraq yeni strateji mövqeləşmənin nəticəsinin hələ öz təsirini tam göstərmədiyini əks etdirir. | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | İl ərzində | Dövlət Turizm Agentliyi, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | Məhəmməd Muradov |
| | | | | 2. Ölkə Brendi Strategiyası reytinqi üzrə mövcud vəziyyətin araşdırılması və qeyd olunan indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi ilə bağlı görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | | |
| 4.4. | **6.05 Səyahət və turizm üzrə kapital qoyuluşu** | 110-cu yer, 1,5 bal | Bu göstərici səyahət və turizm üzrə kapital qoyuluşunun ümumi kapital qoyuluşuna nisbətini əks etdirir. Buraya dövlət (məs., avadanlıq, torpaq, binalar, infrastruktur) və özəl sektorun (məs., hotellər, konqres mərkəzləri, təyyarələr, taksilər) kapital qoyuluşu xərcləri daxildir. | İndikator üzrə mövcud vəziyyətin araşdırılması və mövqeyimizin yüksəldilməsi ilə bağlı görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | İqtisadiyyat Nazirliyi, Dövlət Turizm Agentliyi, Maliyyə Nazirliyi, Dövlət Statistika Komitəsi | Kənan Məmişov |
| **5. Beynəlxalq turizmə açıqlıq** | | | | | | | |
| 5.1. | **7.01 Viza tələbi** | 27-ci yer, 4,4 bal | Bu indikator hədəf turizm bazarlarından ölkəyə giriş üçün viza tələblərini (100= bütün hədəf ölkələr üzrə heç bir viza tələbi yoxdur; 0=bütün hədəf ölkələr üzrə ənənəvi viza tələbi vardır) əks etdirir. Bu göstərici ölkəyə vizasız səfərin, vizanın gəlişdə alına bilməsi və elektron vizanın mövcud olub-olmaması əsasında təyinat ölkəsinin öz viza siyasəti ilə ölkəyə daxil olmanı nə dərəcədə asanlaşdırdığını göstərir. Bu, vizadan azad olan və ya gəlişdə viza, yaxud təyinat ölkəsinə səfər | "Azərbaycan Respublikasının 2022-2026-cı illər Sosial İqtisadi İnkişaf Strategiyası"nın 1.1.10.6-cı bəndi üzrə turistlərin səyahət şərtlərini yaxşılaşdırmaq üçün viza prosedurlarının sadələşdirilməsi tədbiri çərçivəsində hədəf turizm bazarları üzrə viza rejimi ləğv olunan, gəlişdə viza, elektron viza verilən ölkələrin siyahısının artırılması imkanlarına baxılması və bu istiqamətində zəruri işlərin görülməsi | İl ərzində | Xarici İşlər Nazirliyi, Xarici Kəşfiyyat Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Dövlət Turizm Agentliyi, Dövlət Miqrasiya Xidməti | Musa Quliyev, Musa Cəfərov, Kamal Binyətli |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | edərkən elektron viza ala bilən dünya əhalisinin faizi kimi hesablanır:<br>1) təyinat ölkəsinə vizasız gedə bilən hədəf turizm bazarlarının əhalisi (1 əmsal);<br>2) təyinat ölkəsinə daxil olarkən gəliş zamanı viza ala bilən hədəf turizm bazarlarının əhalisi (0,7 əmsal);<br>3) elektron vizadan istifadə edə bilən hədəf turizm bazarlarının əhalisi (0,5 əmsal). | | | | |
| 5.2. | **7.02 İkitərəfli hava xidmətləri üzrə sazişlərin sayı** | 100-cü yer, 1,6 bal | Bu göstərici liberallaşma səviyyəsi ilə ölçülən ölkənin tərəf olduğu hava əlaqəsi sazişlərinin sayını göstərir. Ənənəvi sazişlər 0,5, keçid sazişlər 0,75, tam liberallaşma isə 1 əmsalla qiymətləndirilir.<br>Avropa İttifaqına üzv dövlətlər öz aralarında tam liberallaşmış hesab olunur, Avropa İttifaqına üzv dövlətlər arasında bağlanan ikitərəfli sazişlər isə nəzərə alınmır.<br>Eyni metodologiya Avropa Ümumi Aviasiya Məkanı, Avro-Aralıq dənizi Aviasiya Sazişi, Aİ-ABŞ Açıq Səma Sazişi və Aİ-Kanada Hərtərəfli Hava Nəqliyyatı Sazişlərinə də tətbiq olunur. | 1. İndikatorun hesablanması üzrə metodologiyanın öyrənilməsi və mövcud vəziyyətin təhlil olunması, habelə göstəricinin yaxşılaşdırılması üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Turizm Agentliyi | Elmar Əkbərov |
| | | | | 2. "Azərbaycan Respublikasının 2022-2026-cı illər Sosial İqtisadi İnkişaf Strategiyası"nın 1.1.10.7-ci bəndi üzrə hədəf turizm bazarları ilə nəqliyyat-kommunikasiya əlaqələrinin şaxələndirilməsi və təkmilləşdirilməsi tədbiri çərçivəsində hədəf turizm bazarları üzrə hava nəqliyyatının liberallaşdırılması istiqamətində tədbirlərin görülməsi | 01.12.2023 | | |
| 5.3. | **7.03 Qüvvədə olan regional ticarət sazişlərinin sayı** | 86-cı yer, 1,9 bal | Bu göstərici məhsul (Regional Ticarət Sazişləri) və xidmət (İqtisadi İnteqrasiya Sazişlər) bildirişlərinin sayını əks etdirir, həmçinin qüvvədə olan Regional Ticarət Sazişlərinin (RTA) və İqtisadi İnteqrasiya Sazişlərinin (EIA) sayının cəmi ilə ölkənin xarici əmtəə və xidmətlərə açıqlıq səviyyəsini qiymətləndirir. | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | İl ərzində | İqtisadiyyat Nazirliyi | Kənan Məmişov |
| | | | | 2. Regional ticarət sazişləri ilə bağlı mövcud vəziyyətin təhlil olunması və qeyd olunan indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi istiqamətində görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **6. Qiymət rəqabətliliyi** | | | | | | | |
| 6.1. | **8.01 Bilet vergiləri və hava limanı yığımları** | 97-ci yer, 4,9 bal | Bu göstərici beynəlxalq hava nəqliyyatı xidmətlərinə çıxışın nisbi dəyərini (bilet vergilərini və hava limanı yığımlarını) əks etdirir (0=ən yüksək xərc, 100=ən aşağı xərc).<br>Bu indeks hava limanı yığımları, sərnişin bileti vergiləri və ƏDV-yə əsasən beynəlxalq hava nəqliyyatı xidmətlərinə çıxışın nisbi dəyərini ölçür. Dar gövdəli və geniş gövdəli sərnişin təyyarələrinin hər bir ölkənin əsas beynəlxalq hava limanlarına gəliş və gediş xərclərini əks etdirir. Ödənişlərə IATA-nın Hava Limanı və Hava Naviqasiya Ödənişləri Təlimatında qeyd edildiyi kimi eniş, terminal naviqasiyası, sərnişin və təhlükəsizlik xərcləri daxildir. Daha yüksək bal ödənişlərin və vergilərin aşağı səviyyəsini göstərir. | Beynəlxalq hava nəqliyyatı xidmətlərinin xərcləri üzrə mövcud vəziyyətin təhlil olunması və qeyd olunan indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi ilə bağlı görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, “Azərbaycan Hava Yolları” QSC | Teymur Həsənov, Elmar Əkbərov |
| | | | | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | İl ərzində | | |
| 6.2. | **8.05 Qısamüddətli kirayələrin qiyməti** | 24-cü yer, 6,3 bal | Bu göstırici onlayn rezervasiya platforması olan “airbnb” və digər oxşar platformalarda aktiv şəkildə mövcud olan kirayə evlərin bir gün üçün orta qiymətini əks etdirir. | 2. Qısamüddətli kirayələrin qiyməti üzrə mövcud vəziyyətin təhlil olunması və qeyd olunan indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi ilə bağlı görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | Dövlət Turizm Agentliyi, İqtisadiyyat Nazirliyi | Məhəmməd Muradov |
| **7. Hava nəqliyyatı infrastrukturu** | | | | | | | |
| 7.1. | **9.01 Hava nəqliyyatı xidmətinin effektivliyi** | 46-cı yer, 5,1 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda *“Ölkənizdə hava nəqliyyatı xidməti (tezlik, dəqiqlik, sürət və qiymət baxımından) nə dərəcədə səmərəlidir?”* sualına cavab<br>[ 1 = son dərəcə səmərəsizdir; 7 = son dərəcə səmərəlidir]. | Hava nəqliyyatı xidmətinin tezlik, dəqiqlik, sürət və qiymət baxımından optimallaşdırılması ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, “Azərbaycan Hava Yolları” QSC | Teymur Həsənov, Elmar Əkbərov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 7.2. | **9.02 Həftəlik uçuş məsafəsi** | 85-ci yer<br>- | Bu indikator həftədə (orta illik) əhali sayına görə ölkə ərazisində yerli və beynəlxalq uçuş məsafəsini ölçür.<br>Bu göstərici aviaşirkətin sərnişin daşıma potensialını göstərir və hər bir uçuşda mövcud oturacaqların sayının uçuş məsafəsinə vurulması ilə hesablanır. Yekun qiymət il üzrə həftəlik orta qiyməti göstərir. | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | İl ərzində | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, “Azərbaycan Hava Yolları” QSC | Teymur Həsənov, Elmar Əkbərov |
| | | | | 2. Həftəlik uçuş məsafəsi üzrə mövcud vəziyyətin təhlil olunması və qeyd olunan indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi ilə bağlı görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | | |
| 7.3. | **9.03 Fəaliyyət göstərən hava nəqliyyatı şirkətlərinin sayı** | 61-ci yer<br>- | Ölkədə müntəzəm sərnişin reysləri həyata keçirən aviaşirkətlərin sayı | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | İl ərzində | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, “Azərbaycan Hava Yolları” QSC | Teymur Həsənov, Elmar Əkbərov |
| | | | | 2. Hava nəqliyyatı şirkətlərinin sayının artırılması və qeyd olunan indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi ilə bağlı görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | | |
| 7.4. | **9.04 Hava limanı əlaqələri** | 75-ci yer, 2,7 bal | Bu göstərici ölkənin qlobal hava nəqliyyatı şəbəkəsinə inteqrasiya dərəcəsini ölçür. Hər bir hava limanı üzrə müxtəlif təyinat nöqtələrinə mövcud yerlərin sayı həmin təyinat hava limanının miqyası ilə ölçülür (daşınan sərnişinlərin sayı baxımından). Daha sonra bütün istiqamətlər üzrə yekunlar və hava limanları üzrə yekunlar cəmlənir. | Hava limanı əlaqələri üzrə mövcud vəziyyətin təhlil olunması və qeyd olunan indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi ilə bağlı görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, “Azərbaycan Hava Yolları” QSC | Teymur Həsənov, Elmar Əkbərov |

| 8. Quru və liman infrastrukturu | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.1. | **10.01 Yolların keyfiyyəti** | 33-cü yer, 5 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda *"Ölkənizdə yol infrastrukturunun keyfiyyəti (genişliyi və vəziyyəti) necədir?"* sualına cavab [ 1 = son dərəcə pisdir; 7 = son dərəcə yaxşıdır]. | 1. İndikatorların hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | İl ərzində | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | Asif Həsənov |
| | **10.02 Yolların sıxlığı** | 45-ci yer, 3 bal | Bu göstərici 100 $km^2$ əraziyə düşən yolun uzunluğunu əks etdirir. Yol şəbəkəsinə avtomobil yolları, magistral yollar, ikinci dərəcəli və ya regional yollar, eləcə də bütün digər yollar daxildir. | 2. Yol infrastrukturunun keyfiyyəti və yolların sıxlığı ilə bağlı mövcud vəziyyətin daha da yaxşılaşdırılması üzrə zəruri tədbirlərin davam etdirilməsi | | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Asim Məmmədli |
| 8.2. | **10.03 Dəmir yolu nəqliyyatı xidmətinin effektivliyi** | 12-ci yer, 5,2 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda *"Ölkənizdə dəmir yolu nəqliyyatı xidmətləri nə qədər səmərəlidir (tezlik, dəqiqlik, sürət, qiymət baxımından)?"* sualına cavab [ 1 = son dərəcə səmərəsizdir; 7 = son dərəcə səmərəlidir]. | Dəmir yolu nəqliyyatı xidmətinin effektivliyi (tezlik, dəqiqlik, sürət, qiymət) ilə bağlı mövcud vəziyyətin təhlil olunması və ölkəmizin qeyd olunan indikator üzrə mövqeyinin yüksəldilməsi istiqamətində görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | "Azərbaycan Dəmir Yolları" QSC, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Orxan Əhmədzadə |
| 8.3. | **10.04 Dəmir yollarının sıxlığı** | 32-ci yer, 2,9 bal | Bu göstərici 100 $km^2$ əraziyə düşən dəmir yollarının ümumi uzunluğunu əks etdirir. | Dəmir yollarının sıxlığı indikatoru üzrə ölkəmizin mövqeyinin artırılması məqsədilə həyata keçirilən tədbirlərin davam etdirilməsi | İl ərzində | "Azərbaycan Dəmir Yolları" QSC, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Orxan Əhmədzadə |
| 8.4. | **10.05 İctimai nəqliyyat xidmətinin effektivliyi** | 16-cı yer, 5,3 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda *"Ölkənizdə ictimai nəqliyyat xidmətləri nə qədər səmərəlidir (tezlik, dəqiqlik, sürət, qiymət baxımından)?"* sualına cavab [ 1 = son dərəcə səmərəsizdir; 7 = son dərəcə səmərəlidir]. | 1. İctimai nəqliyyat xidmətinin effektivliyi (tezlik, dəqiqlik, sürət, qiymət) ilə bağlı mövcud vəziyyətin təhlil olunması və qeyd olunan indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi istiqamətində görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | Bakı Şəhər İcra Hakimiyyəti (Bakı Nəqliyyat Agentliyi), Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Tərlan Səfərov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.5. | **10.06 İctimai nəqliyyata adekvat çıxış** | 34-cü yer, 5,3 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda *“Ölkənizdə əhalinin bütün üzvlərinin ictimai nəqliyyat xidmətinə çıxışı nə dərəcədədir?”* sualına cavab [ 1 = çıxış mümkün deyil; 7 = çıxış kifayət qədər mümkündür]. | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | İl ərzində | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti (Bakı Nəqliyyat Agentliyi) | Asif Həsənov |
| | | | | 2. İctimai nəqliyyata adekvat çıxışla bağlı mövcud vəziyyətin təhlil olunması və qeyd olunan indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi ilə bağlı görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | Bakı Şəhər İcra Hakimiyyəti (Bakı Nəqliyyat Agentliyi), Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Tərlan Səfərov, Asif Həsənov |
| 8.6. | **10.07 Liman xidmətlərinin effektivliyi** | M/y | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda *“Ölkənizdə liman nəqliyyatı xidmətləri nə qədər səmərəlidir (tezlik, dəqiqlik, sürət, qiymət baxımından)?”* sualına cavab [ 1 = son dərəcə səmərəsizdir; 7 = son dərəcə səmərəlidir]. | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | İl ərzində | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı | Xudayar Həsənli |
| | | | | 2. Xəzər dənizi limanlarından sərnişin daşıma xidmətlərinin tez, dəqiq, sürətli və optimal qiymətə təşkili ilə bağlı mövcud vəziyyətin araşdırılması və bu istiqamətdə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | | |
| **9. Turizm xidməti infrastrukturu** | | | | | | | |
| 9.1. | **11.01 Hotel otaqlarının sayı** | 86-cı yer, 1,6 bal | Bu göstərici hər 100 nəfərə düşən hotel otaqlarının sayını əks etdirir. | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | İl ərzində | Dövlət Turizm Agentliyi, İqtisadiyyat Nazirliyi | Məhəmməd Muradov |
| | | | | 2. Hotel otaqlarının sayı ilə bağlı mövcud vəziyyətin təhlil olunması və qeyd olunan indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi istiqamətində görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 9.2. | **11.02 Qısamüddətli kirayələrin sayı** | 89-cu yer, 1,2 bal | Bu göstərici onlayn rezervasiya platforması olan “airbnb” və digər oxşar platformalarda aktiv şəkildə mövcud olan hər 10 min nəfərə düşən aktiv kirayə evlərin sayını əks etdirir. | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | İl ərzində | Dövlət Turizm Agentliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi | Məhəmməd Muradov |
| | | | | 2. Qısamüddətli kirayələrlə bağlı mövcud vəziyyətin təhlil olunması və qeyd olunan indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi istiqamətində görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | | |
| | | | | 3. Qısamüddətli kirayə evlərin fəaliyyətinin leqallaşdırılması, onlayn rezervasiya platforması olan “airbnb” və digər oxşar platformalarda belə evlərin sayının çoxaldılması məqsədilə qısamüddətli kirayələrlə bağlı vergi tənzimləmələrinin təkmilləşdirilməsi məsələsinə baxılması | 01.12.2023 | İqtisadiyyat Nazirliyi, Dövlət Turizm Agentliyi, Maliyyə Nazirliyi | Kənan Məmişov |
| 9.3. | **11.03 Avtomobil icarəsi üzrə böyük şirkətlərin mövcudluğu** | 89-cu yer, 2,5 bal | Bu indikator ölkədə avtomobil icarəsi üzrə böyük şirkətlərin mövcudluğunu müəyyən edir. (0 = heç bir şirkət yoxdur, 12 = hesab edilən 12 şirkətin hamısı var).<br>Bu göstərici aşağıdakı 12 əsas avtomobil icarəsi markasının mövcudluğu ilə ölçülür:<br>Ace, Alamo, Avis, Budget, Enterprise, Europcar, Hertz, Localiza, National Car Rental, NÜ Car Rentals, Sixt and Thrifty.<br>Hər bir ölkə üzrə bu şirkətlərdən neçəsinin fəaliyyət göstərməsi onlayn araşdırma ilə hesablanır. | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | İl ərzində | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Turizm Agentliyi, Dövlət Gömrük Komitəsi, Daxili İşlər Nazirliyi, Mərkəzi Bank | Asif Həsənov, Kənan Məmişov |
| | | | | 2. Ölkədə avtomobil icarəsi üzrə böyük şirkətlərin mövcudluğu vəziyyətinin araşdırılması, göstərici üzrə müəyyən edilmiş əsas icarə markaları ilə bağlı təhlillərin aparılması və bu indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi istiqamətində görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | | |
| | | | | 3. Avtomobil icarəsi üzrə böyük şirkətlərin ölkəmizə cəlb olunması istiqamətində danışıqlara başlanılması | 01.12.2023 | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 9.4. | **11.04 ATM-lərin sayı** | 81-ci yer, 2,3 bal | Bu göstərici ATM-lərin sayının yetkin insanların sayına (hər 100 min nəfərə) nisbəti ilə ölçülür. | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | İl ərzində | Mərkəzi Bank (Azərbaycan Banklar Asossasiyası cəlb olunmaqla), Dövlət Turizm Agentliyi, Dövlət Statistika Komitəsi | Azər İsgəndərov |
| | | | | 2. Turizm əhəmiyyətli məkanlar üzrə ATM-lərin quraşdırılması istiqamətində banklara tövsiyələrin verilməsi | 01.07.2023 | | |
| 9.5. | **11.05 Rəqabətli turizm xidmətləri** | 75-ci yer, 5,2 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda *"Ölkənizdə hotel, restoran və istirahət xidmətlərinin göstərilməsi nə dərəcədə rəqabətlidir?"* sualına cavab [1= rəqabətli deyil; 7= yüksək dərəcədə rəqabətlidir]. | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | İl ərzində | Dövlət Turizm Agentliyi, İqtisadiyyat Nazirliyi | Məhəmməd Muradov |
| | | | | 2. Turizm xidmətlərində rəqabətin mövcudluğu vəziyyətinin təhlil olunması və bu indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi ilə bağlı görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | İqtisadiyyat Nazirliyi, Dövlət Turizm Agentliyi | Kənan Məmişov |
| **10. Təbii resurslar** | | | | | | | |
| 10.1. | **12.01 Dünya miqyaslı təbii irs ərazilərinin sayı** | 80-ci yer, 1 bal | Dünya miqyaslı təbii irs ərazilərinə Ümumdünya İrs Komitəsinin unikal dəyərə malik hesab etdiyi ərazilər daxildir. | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | İl ərzində | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Turizm Agentliyi | Rəşad Allahverdiyev |
| | | | | 2. Ölkəmizdə dünya miqyaslı təbii irs əraziləri hesab edilə biləcək sahələrin müəyyənləşdirilməsi və onların Ümumdünya İrs Komitəsində qeydiyyatı ilə bağlı zəruri tədbirlərin görülməsi | 01.09.2023 | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 10.2. | **12.03 Mühafizə olunan ərazilərin ümumi sahəsi** | 86-cı yer, 2,9 bal | Bu göstərici mühafizə altında olan quru və su ərazilərinin ümumi sahəsini müəyyən edir. IUCN-ə əsasən mühafizə olunan ərazi mövcud ekosistem və mədəni dəyərlə birlikdə təbiətin uzunmüddətli qorunmasına nail olmaq üçün leqal və digər effektiv vasitələrlə tanınan və idarə olunan ərazidir. Buraya təbiət qoruqları, təbii ərazilər, milli parklar, təbiət abidələri, növlərin idarə olunduğu ərazilər, mühafizə olunan landşaft, təbii sərvətlərin olduğu qorunan ərazilər daxildir. Göstərici 1-dən 7-yə qədər qiymətləndirmədən əvvəl loqarifmik çevrilmədən keçir. | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | İl ərzində | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Rəşad Allahverdiyev |
| | | | | 2. Mühafizə olunan ərazilərin ümumi sahəsinin artırılması imkanlarının araşdırılması və nəticələrinə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | | |
| 10.3. | **12.04 Təbii turizm rəqəmsal tələbi** | 104-cü yer, 1,1 bal | Bu göstərici təbiətlə bağlı aşağıdakı brend etiketlər üzrə ümumi onlayn axtarış həcmini ölçür: çimərliklər, çimərlik hotelləri, təbii möcüzələr, park və qoruqlar, kamplar, qolf sahələri, kənd evləri, qış kurortları, dayvinq, açıq hava fəaliyyətləri, ovçuluq, balıqçılıq. Spesifik turizm fəaliyyətləri və nümayiş obyektləri ilə əlaqəli açar sözlərdən ibarət müvafiq turizm brend etiketlər üzrə onlayn axtarış məlumatlarının təhlili nəticəsində hər bir ölkənin cəlbediciliyi qiymətləndirilir. | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | İl ərzində | Dövlət Turizm Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Məhəmməd Muradov |
| | | | | 2. Təbii turizm rəqəmsal tələbi ilə bağlı mövcud vəziyyətin təhlil olunması və qeyd olunan indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi istiqamətində görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | | |
| **11. Mədəni resurslar** | | | | | | | |
| 11.1. | **13.01 Dünya Mədəni İrs Siyahısına daxil olan mədəni sərvətlərin sayı** | 55-ci yer, 1,6 bal | Dünya Mədəni İrs Siyahısına Ümumdünya İrs Komitəsinin unikal dəyərə malik hesab etdiyi obyektlər daxil edilir. | 1. Dünya Mədəni İrs Siyahısına daxil edilə biləcək mədəni sərvətlərin araşdırılması və nəticələrinə əsasən qeyd olunan indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi ilə bağlı görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | Mədəniyyət Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Turizm Agentliyi, Xarici İşlər Nazirliyi | Ramil Abbəkirov |
| | | | | 2. “Xınalıq” Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğunun Dünya Mədəni İrs Siyahısına salınması ilə bağlı işlərin davam etdirilməsi | 01.12.2023 | Dövlət Turizm Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Xarici İşlər Nazirliyi | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 11.2. | **13.04 Mədəni və əyləncə turizmi üzrə rəqəmsal tələb** | 94-cü yer, 1,1 bal | Bu göstərici mədəniyyət və əyləncə ilə bağlı aşağıdakı brend etiketləri üzrə ümumi onlayn axtarış həcmini ölçür: restoranlar, yerli qastronomiya, tarixi yerlər, muzeylər, YUNESKO, tarix, yerli rəqslər, yerli insanlar, yerli adət-ənənələr, ənənəvi bazarlar, dini yerlər və ziyarət, ifaçılıq sənətləri, şəhərin görməli yerləri, akvariumlar, əyləncə parkları, gecə həyatı, alış-veriş, zooparklar. | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | İl ərzində | Dövlət Turizm Agentliyi, Mədəniyyət Nazirliyi | Məhəmməd Muradov |
| | | | | 2. Mədəni və əyləncə turizmi üzrə rəqəmsal tələblə bağlı mövcud vəziyyətin təhlil olunması və qeyd olunan indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi istiqamətində görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | | |
| 11.3. | **13.05 YUNESKO yaradıcı şəhərlərinin sayı** | 24-cü yer, 2,3 bal | Bu göstərici YUNESKO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə üzv olan şəhərlərin sayını müəyyən edir. | YUNESKO-nun yaradıcı şəhərlər siyahısına daxil olma imkanlarının araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | İl ərzində | Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi | Məhəmməd Muradov |
| 11.4. | **13.06 Maddi və qeyri-maddi mədəni irsin adekvat mühafizəsi** | 8-ci yer, 5,9 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda *“Ölkənizdə mədəni irs nə dərəcədə qorunur?”* sualına cavab [1= heç qorunmur; 7=kifayət qədər qorunur]. | Maddi və qeyri-maddi mədəni irsin adekvat mühafizəsi ilə bağlı mövcud vəziyyətin təhlil olunması və qeyd olunan indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi istiqamətində görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi | Məhəmməd Muradov |
| **12. Digər resurslar** | | | | | | | |
| 12.1. | **14.04 Digər turizm növləri üzrə rəqəmsal tələb** | 98-ci yer, 1,1 bal | Bu göstərici biznes turizmi, təhsil və sağlamlıq turizmi üzrə aşağıdakı brend etiketləri ilə bağlı ümumi onlayn axtarış həcmini ölçür: biznes, sahibkarlıq, mübadilə proqramları və maliyyə yardımı, dərəcələr və kurslar, könüllü və tibbi turizm. | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | İl ərzində | Dövlət Turizm Agentliyi, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Elm və Təhsil Nazirliyi | Məhəmməd Muradov |
| | | | | 2. Digər turizm növləri üzrə rəqəmsal tələblə bağlı mövcud vəziyyətin təhlil olunması və qeyd olunan indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi istiqamətində görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **13. Ekoloji davamlılıq** | | | | | | | |
| 13.1. | **15.04 Yaşıl enerji və infrastruktura investisiya** | 25-ci yer, 4,8 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda *“Ölkənizdə hökumət yaşıl və dayanıqlı enerji və infrastruktura (məsələn, bərpa olunan enerji, aşağı karbonlu ictimai nəqliyyat, elektrik avtomobilləri üçün infrastruktur) investisiyaları nə dərəcədə maliyyələşdirir və subsidiyalaşdırır?”* sualına cavab [1= heç dəstəkləmir; 7= çox dəstək göstərir]. | İndikatorun tələbi baxımından mövcud vəziyyətin araşdırılması, və qeyd olunan göstərici üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi ilə bağlı görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | Energetika Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Asəf Rzayev, Asif Həsənov |
| 13.2. | **15.11 Ətraf mühit haqqında ratifikasiya olunmuş müqavilələrin sayı** | 102-ci yer, 4,7 bal | Bu göstərici ətraf mühitin mühafizəsi ilə bağlı dövlətin qoşulduğu beynəlxalq sənədlərin sayına əsasən müəyyənləşdirilir. | Ətraf mühit haqqında ratifikasiya olunmuş müqavilələrin sayının artırılması imkanının araşdırılması və nəticələri üzrə təkliflər hazırlanmaqla müvafiq tədbirlərin həyata keçirilməsi | İl ərzində | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Rəşad Allahverdiyev |
| 13.3. | **15.12 Təbiətin adekvat qorunması** | 6-cı yer, 5,8 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda *“Ölkənizdə ətraf mühit və təbiət nə dərəcədə qorunur?”* sualına cavab [1= qorunmur; 7= kifayət qədər qorunur]. | Təbiətin adekvat qorunması ilə bağlı mövcud vəziyyətin təhlil olunması və nəticələri üzrə təkliflər hazırlanmaqla müvafiq tədbirlərin həyata keçirilməsi | | | |
| 13.4. | **15.13 İstehsalın ətraf mühitə və təbiətə təsirinə nəzarət** | 17-ci yer, 4,9 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda *“Ölkənizdə şirkətlər yerli istehsal proseslərinin təbiət və ətraf mühitə təsirini nə dərəcədə nəzərə alırlar?”* sualına cavab [1= aydın idarəetmə prosesi yoxdur; 7= aydın idarəetmə prosesi və standartlar mövcuddur]. | İstehsalın ətraf mühitə və təbiətə təsirinə nəzarətlə bağlı mövcud vəziyyətin təhlil olunması və nəticələri üzrə təkliflər hazırlanmaqla müvafiq tədbirlərin həyata keçirilməsi | | | |
| 13.5. | **15.15 Qorunan ərazilərin əhatə etdiyi əsas biomüxtəliflik sahələri** | 109-cu yer, 1,6 bal | Bu göstərici qorunan ərazilərlə əhatə olunan dəniz, şirin su və quru mühiti üzrə əsas biomüxtəliflik ərazilərinin orta nisbəti ilə ölçülür.<br><br>Əsas biomüxtəliflik əraziləri planetin ümumi sağlamlığı və biomüxtəlifliyin davamlılığı üçün qlobal əhəmiyyət kəsb edən sahələrdir. | İndikator üzrə mövcud vəziyyətin araşdırılması və nəticələri üzrə təkliflər hazırlanmaqla müvafiq tədbirlərin həyata keçirilməsi | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **14. Səyahət və turizm üzrə tələb, təzyiq və təsir** | | | | | | | |
| 14.1. | **17.01 Səyahət və turizm ÜDM multiplikatoru** | 73-cü yer, 3,2 bal | Dolayı və induksiya edilmiş səyahət və turizm gəlirlərinin ÜDM-dəki payı ilə birbaşa turizm gəlirlərinin ÜDM-dəki payının nisbəti. | Qeyd olunan indikator üzrə mövcud vəziyyətin araşdırılması və ölkəmizin mövqeyinin yüksəldilməsi ilə bağlı görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | Dövlət Statistika Komitəsi, Dövlət Turizm Agentliyi | Rauf Əliyev |
| 14.2. | **17.02 Gəlmə turistin qalma müddəti** | 102-ci yer, 2 bal | Bu göstərici təyinat ölkəsində turistin keçirdiyi günlərin sayı ilə ölçülür. | 1. İndikatorun hesablanması ilə bağlı metodologiyanın öyrənilməsi, çatışmazlıq olduğu təqdirdə, məlumatların ötürülməsi işinin təkmilləşdirilməsi | 01.12.2023 | Dövlət Turizm Agentliyi | Məhəmməd Muradov |
| | | | | 2.Gəlmə turistin qalma günlərinin sayının artırılması ilə bağlı təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | | |
| 14.3. | **17.03 Gəlmə turizmdə mövsümilik** | 59-cu yer, 5,7 bal | Bu göstərici il ərzində ümumi turist səfərlərinin sayında ən mühüm üç ayın faiz nisbəti əsasında müəyyən edilir. | Gəlmə turizmdə mövsümiliyin azaldılması ilə bağlı təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | Dövlət Turizm Agentliyi, Mədəniyyət Nazirliyi, İqtisadiyyat Nazirliyi, digər aidiyyəti qurumlar | Məhəmməd Muradov |
| 14.4. | **17.04 Mədəni nümayiş obyektlərinə maraq, baxış**<br><br>**17.05 Təbii nümayiş obyektlərinə maraq, baxış** | 43-cü yer, 3,5 bal<br><br>18-ci yer, 4,6 bal | Ölkənin mədəni nümayiş obyektlərinin “Tripadvisor” platformasında ümumi səhifə baxışlarının faizi.<br><br>Ölkənin təbii nümayiş obyektlərinin “Tripadvisor” platformasında ümumi səhifə baxışlarının faizi. | Müvafiq platformalarda mədəni və təbii nümayiş obyektlərinə baxış sayının artırılması ilə bağlı təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | Dövlət Turizm Agentliyi, Mədəniyyət Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Məhəmməd Muradov |
| 14.5 | **17.06 Turizmin ərazi üzrə paylanması** | 5-ci yer, 5 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda *“Turistlərin ölkədə ərazi üzrə paylanması nə dərəcədədir?”* sualına cavab [1= turistlər ancaq bir neçə məntəqədə cəmləşir; 7= ölkənin bütün ərazisi turizm proseslərinə cəlb olunur]. | Turizmin ərazi üzrə paylanması vəziyyətinin təhlil olunması və indikator üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi ilə bağlı görüləcək işlərə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2023 | Dövlət Turizm Agentliyi | Məhəmməd Muradov |